**Qeydiyyata alınmışdır**

Azərbaycan Respublikası
Ədliyyə Nazirliyində

"__"____________2004-cü il

Hüquqi Şəxslərin Qeydiyyatı
İdarəsinin Rəisi

F. Məmmədov ____________

Ümumi Yığıncaq iştirakçıları
tərəfindən

26 fevral 2004-cü il
tarixdə

**Təsdiq edilmişdir**

____________________
Stenli Eskudero

---

# AZƏRBAYCANDA AMERİKA TİCARƏT PALATASI İCTİMAİ BİRLİYİNİN

# NİZAMNAMƏSİ

---

**Bakı, 2004**

## MADDƏ 1
## ÜMUMİ MÜDDƏALAR

1.1 "Azərbaycanda Amerika Ticarət Palatası" ictimai birliyi ("Palata") Azərbaycan Respublikası qanunvericiliyinə əsasən ictimai birlik kimi təşkil olunmuş qeyri-kommersiya, qeyri-hökumət və əsas məqsədi mənfəət götürmək olmayan təşkilatdır.

1.2 Palatanən tam adı – "Azərbaycanda Amerika Ticarət Palatası" ictimai birliyidir. Palatanın qısaldılmış adı – "AmCham Azerbaijan"-dır.

1.3 Palata qeyri-müəyyən müddətə təsis edilir. Palatanın hüquqi şəxs kimi hüquqları onun dövlət qeydiyyatına alındığı andan yaranır. Palatanın fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi və bu Nizamnamə ilə tənzim olunur. Bu Nizamnamə ilə tənzim olunamayan məsələlər Azərbaycan Respublikasının qanunları ilə tənzim olunur.

1.4 Palata aşağıda qeyd olunan hüquqi şəxsin bazası əsasında yaradılır və onun hüquqi varisidir:

| | |
|---|---|
| "Azərbaycanda Amerika Ticarət Palatası" ictimai təşkilatı | Qeydiyyat nömrəsi: 892<br>Qeydiyyat tarixi: 1 noyabr 1996-cı il<br>Ünvan: Hüseyn Cavid küç. 33<br>Bakı, Azərbaycan Respublikası |

1.5 Palata öz öhdəlikləri üçün ona mənsub bütün əmlakla cavabdehdir. Palatanın əmlakına yönəldilmiş tələblər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təmin edilir.

1.6 Palatanın üzvləri Palatanın öhdəlikləri üçün, Palata isə üzvlərinin öhdəlikləri üçün heç bir cavabdehlik daşımır.

1.7 Palatanın əmlakı və üzvlərinin Palataya verdiyi ianələr, müxtəlif qanuni mənbələrdən verilən könüllü ianələr və qrantlar, Palatanın fəaliyyəti, yaxud əmlakının satılmasından əldə olunan gəlir, eyni zamanda Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən əldə olunan digər əmlak Palatanın mülkiyyətidir. Palatanın əmlakı daşınar və daşınmaz əmlakdan və dəyəri Palatanın balansında göstərilən digər qiymətli əşyalardan ibarətdir.

1.8 Palatanın üzərində adı və rəmzi olan rəsmi möhürü vardır.

1.9 Palata aşağıdakı hüquqi ünvanda yerləşir:

Landmark Plaza
45A Xəqani küçəsi
Bakı Az 1000 Azərbaycan Respublikası

1.10 Palata Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun fəaliyyət göstərir. Palata Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş formada, qaydada və müddətdə öz fəaliyyəti ilə bağlı müvafiq dövlət orqanlarına məcburi hesabatlar verir.

1.11 Palatanın işçi dilləri Azərbaycan və İngilis dilləridir. İşlənməsi qanunla məcburi olan hallardan başqa, Palata qeyd edilən dillərin hər hansı birindən istifadə edir.

## MADDƏ 2
## PALATANIN MƏQSƏDLƏRİ VƏ FƏALİYYƏTİ

2.1 Palatanın məqsədi Azərbaycan Respublikasının işgüzar mühitinin yaxşılaşdırılması üçün çalışmaq və öz üzvlərinə xidmətlər göstərmək yolu ilə üzvlərinin işgüzar mənafelərinin inkişaf etdirməkdən ibarətdir.

2.2 Palata öz məqsədlərinə aşağıdakı yollar ilə çatır:

2.2.1. Amerika Birləşmiş Ştatları (“ABŞ”) və Azərbaycan Respublikasının müvafiq dövlət orqanları ilə iqtisadiyyat, energetika, ticarət, sənaye, kənd təsərrüfatı, nəqliyyat, texnika və texnologiya, peşə fəaliyyətləri, vergi və ABŞ ilə Azərbaycan arasında mövcud olan iqtisadi əlaqələr (“Maraq Məsələləri”) ilə bağlı əməkdaşlıq etməklə;
2.2.2. ABŞ və Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri arasında yaranmış əlaqələri inkişaf etdirmək yolu ilə;
2.2.3. Maraq məsələləri ilə bağlı olan məlumatları toplamaq, saxlamaq və yaymaq yolu ilə;
2.2.4. İctimai yığıncaqlar və seminarlar təşkil etməklə;
2.2.5. ABŞ-Azərbaycan işgüzar əlaqələri haqqında materiallar dərc etməklə;
2.2.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan hər hansı başqa fəaliyyət vasitəsi ilə.

2.3 Bu maddədə sadalanan fəaliyyət növlərini həyata keçirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə lisenziya, icazə, şəhadətnamə və ya hər hansı başqa formada razılıq olunarsa, Palata belə fəaliyyətlə yalnız müvafiq lisenziya, icazə, şəhadətnamə və ya başqa formada qazılıq aldıqdan sonra məşğul ola bilər.

## MADDƏ 3
## ÜZVLÜK

3.1 Palataya qəbul olunanlar iki qrupa bölünürlər: üzvlər və köməkçilər. Direktorlar Şurası tərəfindən Palataya qəbul olunmaq üçün seçilən fiziki və hüquqi şəxslər qeyd olunan qrupların hər hansı biri üçün nəzərdə tutulmuş tələblərə cavab verməlidirlər. Palata üzv və köməkçilərin müxtəlif kateqoriyalarını formalaşdıra bilər.

3.2 Üzv kimi Palataya qəbul olunmaq üçün namizəd aşağıdakı tələblərə cavab verməlidir:

a) Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxs olmalı; və ya ABŞ-da təsis edilməli və ya qeydiyyatdan keçməli və ya ABŞ-Azərbaycan birgə müəssisəsi kimi təsis olunmalı; və ya ABŞ-da əhəmiyyətli kommersiya fəaliyyəti ilə məşğul olmalı və ya öz kommersiya fəaliyyətinin

mühüm bir hissəsi kimi ABŞ əmək və materiallarından istifadə etməli və ya ABŞ və ya ABŞ şirkətləri ilə mühüm iqtisadi əlaqələri olmalı; və

b) Qüsursuz işgüzar nüfuza malik olmalı; və
c) Bu Nizamnamənin Məqsəd və Vəzifələrinə uyğun olaraq Direktorlar Şurası tərəfindən məqsədəmüvafiq hesab olunmalıdır.

3.3 Hər hansı fiziki və hüquqi şəxs və ya hüquqi şəxsin filial və ya nümayəndəliyi Palataya köməkçi kimi qəbul oluna bilər.

3.4 Palataya üzv qəbul edilmək üçün müraciət etmək məqsədilə namizəd Direktorlar Şurası tərəfindən qəbul olunmuş formada ərizə təqdim etməlidir.

3.5 Palataya qəbul olunmaq üçün müəyyən edilmiş tələblərə cavab verən namizəd Direktorlar Şurasının müsbət səs çoxluğunu qazandıqdan və qrupu üçün nəzərdə tutulmuş haqqı ödədikdən sonra ya üzv, ya da köməkçi kimi Palataya qəbul olunur.

3.6 Palatanın tərkibində qalmaq və Palatada yaxşı ada malik olmaq üçün üzv və ya köməkçi Palataya qəbul olunmaq üçün nəzərdə tutulan tələblərə cavab verməkdə davam etməli, Direktorlar Şurasının müəyyən etdiyi şəkildə cəmiyyətdə yaxşı ada malik olmalı və Palataya olan bütün maliyyə öhdəliklərini icra etməlidirlər.

## MADDƏ 4
## ÜZV VƏ KÖMƏKÇİNİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

4.1 Palata üzvlərinin səsvermə və Palatanın Ümumi Yığıncağında iştirak etmək hüququ vardır. Hər bir üzvün bir üzv üçün bir səs kimi müəyyən edilmiş bərabər səsvermə hüququ vardır. Hər bir üzv onun adından səs vermək səlahiyyəti olan nümayəndəsini yazılı formada təyin edir. Palatanın üzvü İcraçı Direktoru yazılı şəkildə xəbərdar etməklə təyin etdiyi nümayəndəsini dəyişə bilər.

4.2 Üzvün nümayəndəsi Palatada istənilən seçkili vəzifə tuta bilər.

4.3 Üzv və köməkçilərin Palatanın fəaliyyəti ilə bağlı olan imtiyazlar almağa hüququ vardır. Direktorlar Şurasının müəyyən etdiyi hallardan başqa qalan hallarda imtiyazların verilməsi üçün heç bir haqq alınmır.

4.4 Üzvlər və köməkçilər Palatanın mənafelərini və adını qorumalı, bu Nizamnaməyə və Azərbaycan Respublikasının qanunlarına riayət etməlidirlər.

## MADDƏ 5
## ÜZVLÜYƏ VƏ KÖMƏKÇİLİYƏ XİTAM QOYULMASI VƏ DAYANDIRILMASI

5.1 Hüquqi şəxsin üzvlüyü onun hüquqi şəxs statusunu itirdiyi andan sona çatır. Üzvlük və ya köməkçiliyə müvafiq olaraq üzvün və ya köməkçinin könüllü istefa verməsi və yaxud məcburi çıxarılma ilə xitam verilə bilər.

5.2 Üzvün və ya köməkçinin istefa verməsi haqqında Palataya ünvanlanmış yazılı bildiriş Direktorlar Şurasına təqdim olunmalıdır. Yazılı bildiriş alındığı andan üzv və ya köməkçi istefaya çıxmış hesab

edilir. İstefa vermiş üzv və ya köməkçi Palata qarşısında yerinə yetirmədiyi bütün öhdəlikləri üçün məsuliyyət daşıyır.

5.3 Direktorlar Şurası üzvlüyə və ya köməkçiliyə müvafiq olaraq üzvün və ya köməkçinin öz vəzifələrinə biganə yanaşdığına, o cümlədən ödəməli olduğu haqların və ya digər xərclərin ödəməsini gecikdirdiyinə, Palataya zərər yetirən davranışa yol verdiyinə və yaxud üzvlüyün və ya köməkçiliyin davam etdirilməsi Palataya ziyanlı olduğuna görə xitam verə bilər. Üzvlükdən məcburi çıxarılan üzv Direktorlar Şurasının qərarından Ümumi Yığıncağa şikayət ərizəsi verə bilər. Üzvlüyünə Direktorlar Şurası tərəfindən xitam verilən üzv Ümumi Yığıncaqda iştirak edənlərin adi səs çoxluğu ilə üzvlükdə bərpa oluna bilər. Əgər Ümumi Yığıncaq üzvü üzvlükdə bərpa etməsə, o, üzvlükdə bərpa olunmaq üçün məhkəməyə verə bilər.

5.4 Direktorlar Şurası Palatanın tədbirlərdə iştirak etmək hüququ daxil olmaqla, üzvün və ya köməkçinin digər hüquq və imtiyazlarını üzvün və ya köməkçinin Palataya ödəməli olduğu haqları və ya digər xərcləri ödəmədiyi halda, üzvlükdən və ya köməkçilikdən çıxarılma məsələsi həll olunana, yaxud (yalnız üzvlərə şamil olunur) üzvün Ümumi Yığıncağa şikayət ərizəsi baxılana qədər müvəqqəti olaraq dayandıra bilər.

## MADDƏ 6
## PALATANIN HÜQUQLARI

6.1 Öz məqsədlərinə nail olmaq üçün Palata Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada aşağıdakı hüquqlara malikdir: müqavilələr bağlamaq, əmlak və şəxsi qeyri-əmlak əldə etmək, öz üzərinə öhdəliklər götürmək, Azərbaycan Respublikasında və ya digər ölkədə hər hansı qanuni fəaliyyətlə məşğul olmaq.

6.2 Palata istər Azərbaycan Respublikasında, istərsə də onun hüdudlarından kənarda keçirilən yığıncaqlarda, yarmarkalarda və sərgilərdə iştirak edə bilər.

6.3 Palata istər Azərbaycan Respublikasının, istəsə də başqa ölkənin ədalət və ya arbitraj məhkəməsi qarşısında iddiaçı və cavabdeh qismində çıxış edə bilər, mübahisənin həlli istiqamətində danışıqlar apara bilər və bununla bağlı barışıq sazişi imzalaya bilər.

6.4 Palatanın əmlakı onun mülkiyyəti hesab olunur və o, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, məqsədlərinə nail olmaq üçün öz əmlakı və gəlirləri üzərində sahiblik, istifadə və sərəncam vermək hüquqlarına malikdir.

6.5 Palata istər Azərbaycan Respublikasında, istərsə də başqa ölkədə nümayəndəliklər, filiallar, bölmələr və hüquqi şəxs statusu olmayan başqa müstəqil qurumlar təsis edə bilər və tətbiq olunan qanunvericiliyə əsasən sözügedən nümayəndəliklərin, filialların, bölmələrin və ya hüquqi şəxs statusu olmayan başqa müstəqil qurumların öhdəlikləri üçün məsuliyyət daşıyır.

6.6 Fəaliyyətini genişləndirmək məqsədilə Palata tətbiq olunan qanunvericiliyə əsasən həm Azərbaycan Respublikasında, həm də başqa ölkədə daşınmaz və ya daşınar əmlakı ala, icarəyə verə və ya kirayə götürə bilər.

6.7 Palata fəaliyyətini həyata keçirmək üçün zəruri olan bütün növ malları, sidmətləri, daşınar və daşınmaz əmlakı idxal və ya ixrac edə bilər.

6.8 İşçilərini təlimləndirmək məqsədilə Palata Azərbaycan Respublikasında və ya başqa ölkədə təlim mərkəzləri yarada bilər.

6.9 Palata Azərbaycan Respublikasında xarici valyuta və ya manat hesabları aça bilər və zərurət olduqda, tətbiq olunan qanunvericiliyə uyğun olaraq, xarici valyuta və ya manatda olan kredit və borc ala bilər.

6.10 Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Palata üçüncü şəxslər tərəfindən öhdəliklərin yerinə yetirilməsinə zaminlik verə və xarici valyutada və ya manatda götürdüyü kredit və borcların ödənilməsi daxil olmaqla, bağladığı müqavilələrdən irəli gələn digər öhdəliklərin icrasını təmin etmək üçün əmlakını girov və ya ipoteka ilə yüklü edə bilər.

6.11 Palatanın Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər hüquqları vardır.

## MADDƏ 7
## ÜMUMİ YIĞINCAQ

7.1 Ümumi Yığıncaq bu Nizamnamənin müddəalarına və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fəaliyyət göstərir və Palatanın qərar qəbul etmək səlahiyyəti olan ali idarəetmə orqanıdır. Üzvlərin ən azı 25 faizinin nümayəndələrə iştirak etdikdə Ümumi Yığıncaq səlahiyyətli sayılır və yetərsay təmin olunur. Bu Nizamnaməyə dəyişiklik etmək üçün ən azı 51 faiz üzvün səlahiyyətli nümayəndəsi iştirak etməlidir.

7.2 Ümumi Yığıncaq, il ərzində bir dəfədən az olmamaq şərti ilə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş müddət ərzində çağırılır. İllik Ümumi Yığıncaqlar istisna olmaqla, qalan Ümumi Yığıncaqlar növbədənkənar yığıncaqlar hesab edilir.

7.3 İllik və ya növbədənkənar Ümumi Yığıncaqlar Direktorlar Şurası, həmin vaxt Palatanın yaxşı ada malik üzvü olan Palata təsisçilərindən biri və ya bütün üzvlərin 1/3 tərəfindən çağırılır.

7.4 İstənilən İllik və ya növbədənkənar Ümumi Yığıncaqlar İcraçı Direktor tərəfindən Ümumi Yığıncağın çağırılması haqqında bildirişi üzvlərə ən azı 2 (iki) həftə öncə göndərdikdən sonra çağırılır. Göndərilən bildirişdə Ümumi Yığıncağın keçirilmə tarixi, yeri və gündəliyi ilə bağlı məlumat olmalıdır.

7.5 Maddə 7-də nəzərdə tutulan tələblərə uyğun keçirilən Ümumi Yığıncaq qanuni hesab edilir. Təyin olunmuş vaxtdan bir saat keçdikdən sonra yetərsay olmazsa, Ümumi Yığıncaq həmin tarixdən sonra on (10) gündən gec olmayan başqa bir tarixədək təxirə salınır. Bu tarix Prezident, onun olmadığı təqdirdə isə Birinci Vitse Prezident tərəfindən müəyyən olunur. Bütün üzvlərə yeni Ümumi Yığıncaq barədə dərhal xəbər verilir.

7.6 Lazımi qaydada çağırılmış Ümumi Yığıncaq fəaliyyətini həyata keçirməyə səlahiyyətlədir. Yalnız gündəlikdə olan məsələlər müzakirə oluna bilər. Gündəliyə dəyişiklik və əlavələr Ümumi Yığıncağın çağırılmasına ən azı on dörd (14) gün qalmış üzvlərin onda birinin (1/10) yazılı xahişi əsasında edilir.

Gündəlikdə edilən belə əlavələr və ya dəyişikliklər haqqında bütün üzvlərə yazılı formada dərhal məlumat verilir.

7.7 Ümumi Yığıncaqda üzvlərin müvəkkil edilmiş nümayəndələrin çoxunun səsini toplayan qərar qəbul edilmiş sayılır. Səslər bərabər olduqda, Prezidentin səsi, Prezidentin olmadığı təqdirdə isə, Birinci Vitse Prezidentin səsi səsvermənin nəticəsini müəyyən edir. Qanuniliyi mübahisə edilən seçkilər istisna olmaqla, Ümumi Yığıncaqda başqa cür razılaşdırılmayıbsa, üzvlər əllərini qaldırmaq yolu ilə səs verirlər. Qərarın qəbul olunub-olunmaması haqqında Ümumi Yığıncaq Sədrinin bəyanatı və bu barədə Ümumi Yığıncağın protokoluna daxil edilmiş qeydlər olunması barədə məlumat Ümumi Yığıncağın Katibi funksiyasını həyata keçirən İcraçı Direktor tərəfindən yazılı şəkildə qeydə alınır.

7.8 Ümumi Yığıncağın Sədri Yığıncağın keçirildiyi vaxt Ümumi Yığıncaqda iştirak edən üzvlərin səlahiyyətli nümayəndələri tərəfindən seçilir. Qanunla məhdudiyyət nəzərdə tutulmayıbsa, Ümumi Yığıncaq iştirakçıları telefon və ya yığıncaqda iştirak edənlərin bir-birlərini eşitmək imkanı verən digər rabitə vasitələrinin köməyi ilə Yığıncaq keçirilə bilər və Maddə 7.8-ə uyğun olaraq keçirilən Yığıncaqda iştirak edənlərin Yığıncaqda şəxsən iştirak etmiş sayılırlar.

7.9 Ümumi Yığıncağın protokolları İcraçı Direktorda saxlanılır. Ümumi Yığıncağı protokolları və ya Ümumi Yığıncağın protokollarından çıxarışlar Ümumi Yığıncağın Sədri və İcraçı Direktor tərəfindən imzalanır və üzərinə Palatanın möhürü vurulur. Hər bir üzvün protokolun bir nüsxəsini almaq hüququ var.

7.10 Aşağıdakı məsələlərlə bağlı qərar qəbul etmək Ümumi Yığıncağın müstəsna səlahiyyətinə aiddir:

- 7.10.1. Palatanın nizamnaməsinin və ya ona edilmiş dəyişikliklərin təsdiq edilməsi;
- 7.10.2. Palatanın illik maliyyə hesabatının və mühasibat balansının təsdiq olunması;
- 7.10.3. Direktorlar Şurası tərəfindən seçilmiş auditorların təsdiq edilməsi;
- 7.10.4. Palatanın əmlakının yaradılması və istifadə edilməsi qaydalarının müəyyən edilməsi;
- 7.10.5. Palatanın Direktorlar Şurası üzvlərinin seçilməsi, təkrar seçilməsi, çıxarılması və səlahiyyət müddətinin müəyyən olunması;
- 7.10.6. Palatanın yenidən təşkil edilməsi və ləğvi; və
- 7.10.7. Direktorlar Şurasının üzvlüyünə namizədlik üçün uyğunluq meyarlarının təsdiq edilməsi.

## MADDƏ 8
## DİREKTORLAR ŞURASI (İDARƏETMƏ ŞURASI)

8.1 Direktorlar Şurası Palatanın icra orqanıdır və o, bu Nizamnamə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Ümumi Yığıncağın müstəsna səlahiyyətinə daxil olmayan istənilən məsələ ilə bağlı qərar qəbul edə bilər.

8.2 Direktorlar Şurası Prezident daxil olmaqla, 10 (on) səs vermək hüququ olan üzvdən ibarətdir. Seçilən və ya təyin olunan vaxt Direktorlar Şurasının hər bir üzvü Palata üzvünün səlahiyyətli nümayəndəsi olmalıdır. ABŞ-ın Azərbaycan Respublikasında olan hazırkı səfiri və ya onun təyin etdiyi şəxs və İcraçı Direktor Direktorlar Şurasının səs vermək hüququ olmayan üzvləri sayılırlar. Prezident Direktorlar Şurasının sədri, Birinci Vitse Prezident isə Direktorlar Şurası sədrinin müavinidir.

8.3 Direktorlar Şurasının üzvləri Ümumi Yığıncaq tərəfindən hər biri 2 (iki) ildən ibarət olan iki ardıcıl müddətdən çox olmayaraq seçilirlər. İki ardıcıl müddətə Direktorlar Şurasına seçilmiş üzv yalnız bir seçki dövrü (iki il) bitdikdən sonra yenidən Direktorlar Şurasının üzvlüyünə namizədliyini irəli sürə bilər. Direktorlar Şurasının üzvü istənilən vaxt istefaya getmək barədə yazılı formada ərizə verə bilər.

8.4 İllik Ümumi Yığıncaqların keçirildiyi vaxt arasında Direktorlar Şurasında yaranmış boş vəzifə, Palatanın üzvlərindən vəzifə tutmaq hüququ olan səlahiyyətli nümayəndənin növbədənkənar Ümumi Yığıncağın seçilməsi yolu ilə İllik Ümumi Yığıncağın keçirilməsinə qədər doldurula bilər.

8.5 Prezident hər biri 2 (iki) ildən ibarət olan iki ardıcıl müddətdən çox olmayaraq Ümumi Yığıncaq tərəfindən seçilir. İki ardıcıl müddətə Prezident seçilmiş üzv yalnız bir seçki dövrü (iki il) bitdikdən sonra yenidən Prezidentliyə namizədliyini irəli sürə bilər.

8.6 Birinci Vitse-Prezident, Vitse-Prezident və Palatanın digər vəzifəli şəxsləri hər biri 2 (iki) ildən ibarət olan 2 (iki) ardıcıl müddətdən çox olmayaraq, Ümumi Yığıncaq tərəfindən seçilirlər. İki ardıcıl müddət üçün Birinci Vitse-Prezident, Vitse-Prezident və Palatanın digər vəzifələrinə seçilmiş üzvlər yalnız bir seçki dövrü (iki il) bitdikdən sonra eyni vəzifəyə yenidən seçilə bilərlər.

8.7 Ümumi Yığıncaqların çağırıldığı vaxt arasında Prezident vəzifəsi boş olarsa, növbədənkənar Ümumi Yığıncaq tərəfindən təsdiq olunduqdan sonra Birinci Vitse Prezident növbəti İllik Ümumi Yığıncağın çağırılmasına qədər Prezident təyin olunur.

8.8 Direktorlar Şurası istənilən üzvün tələbi ilə çağırılır. İclasın çağırılmasına ən azı on dörd (14) gün qalmış, iclası çağıran Şura üzvü Şura iclasının çağırılması haqqında bildirişi bütün Şura üzvlərinə göndərməlidir. Hər bir Şura üzvü özünə münasibətdə belə bildiriş almaq hüququndan imtina edə bilər.

8.9 Səs vermək hüququ olan Şura üzvlərinin çoxu Direktorlar Şurasının bütün iclaslarında yetərsay təşkil edirlər. Yetərsayın baş tutduğu iclasda iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul edilən qərar Direktorlar Şurasının qərarı sayılır. Səslərin sayı bərabər olduqda, Prezidentin səsi həlledicidir. Direktorlar Şurasının heç bir üzvü səs verməkdən çəkinə bilməz. Direktorlar Şurasının keçirdiyi iclasda yetərsay olmazsa, iştirak edən üzvlərin çoxunun qərarı ilə iclasın keçirilməsi yetərsayın baş tutması müddətinədək təxirə salınır.

8.10 Qanunla məhdudiyyət nəzərdə tutulmayıbsa, Şura üzvləri telefon və ya iclasda iştirak edənlərin bir-birlərini eşitmək imkanı verən digər rabitə vasitələrinin köməyilə iclas keçirə bilərlər və Maddə 8.10-a uyğun olaraq keçirilən iclasda iştirak edənlər iclasda şəxsən iştirak etmiş sayılırlar.

8.11 Direktorlar Şurasının qəbul etdiyi qərarlar Prezident və İcraçı Direktor tərəfindən imzalanaraq Palatanın möhürü ilə möhürlənir və Palatanın qeydiyyat jurnalına daxil edilir.

8.12 Aşağıdakı hallada Şura üzvünün səlahiyyətləri başa çatır:

8.12.1. Şura üzvünün vəzifədə qalma müddəti sona çatdıqda;
8.12.2. Şura üzvünün təmsil etdiyi şirkət Palatanın üzvlüyündən çıxdıqda;
8.12.3. Ümumi Yığıncaqda iştirak edənlərin adi səs çoxluğu ilə Şura üzvü vəzifəsindən kənarlaşdırıldıqda; və ya

8.12.4. Səbəbindən asılı olmayaraq bir il müddətində altı və ya daha çox iclasda iştirak etmədikdə. Bu halda iştirak etməyən Şura üzvünün səlahiyyətli nümayəndəsi məqbul əvəzedici hesab edilmir.

8.13 Direktorlar Şurası aşağıdakı məsələləri həll edir:

8.13.1. Bu Nizamnaməyə əsasən Ümumi Yığıncağa baxılması və ya təsdiq olunması üçün təqdim edilməli olan məsələlərlə bağlı ilkin rəy verir;
8.13.2. Ümumi Yığıncağın qəbul etdiyi qərarlara əməl olunması üçün bütün tədbirlər görmək və bu qərarların icrasını təmin etmək;
8.13.3. Palatanın tərəfindən görülən istənilən borcların və ya verilən istənilən kreditlərin təsdiq edilməsi, dəyəri 250 ABŞ dollarından və ya bu məbləğin Azərbaycan manatı və ya hər hansı bir başqa bir valyutada olan ekvivalentindən çox olan öhdəliklərin başqa şəxslər tərəfindən icra ediləcəyinə Palatanın verdiyi zəmanət və ya zaminliyin təsdiq edilməsi;
8.13.4. illik, orta müddətli və uzun müddətli iş planlarının hazırlanması;
8.13.5. illik gəlirlərin və xərclərin yoxlanılması və təsdiq edilməsi;
8.13.6. Şura tərəfindən müəyyən olunan məsələlərin həll edilməsi üçün komitələr yaradılması və ya ləğv edilməsi;
8.13.7. Palataya məxsus olan aktivlərin satılması və ya onlara dair sərəncam vermək məsələləri, əgər bu məsələlər Palatanın planlarına uyğun olaraq həyata keçirilən gündəlik məsələlər deyildirsə;
8.13.8. əgər müqavilə və ya müqavilələrə əsasən Palatanın xərclərinin və ya öhdəliklərinin ümumi məbləği Direktorlar Şurası tərəfindən müəyyən edilmiş həddən çox olarsa, belə müqavilələrin təsdiq edilməsi;
8.13.9. istənilən icarə müqavilələrin və ya belə müqavilələrə edilən dəyişikliklərin təsdiq edilməsi;
8.13.10. Zəruri hallarda, üzvlərin və ya Azərbaycan Respublikası qanunvericiliyinin tələb etdiyi təqdirdə Palatanın maliyyə vəziyyəti ilə bağlı audit yoxlaması keçirmək üçün auditorların seçilməsi;
8.13.11. Palatanın aktivlərini girov və ya ipoteka qoymaq, icarəyə vermək və ya hər hansı bir başqa şəkildə yüklü etmək məsələlərinin təsdiq edilməsi;
8.13.12. Mahiyyətinə və ya qanunla nəzərdə tutulduğuna görə qəbul edilməsi və ya təsdiq edilməsi Direktorlar Şurasının səlahiyyət dairəsinə aid olan və Ümumi Yığıncağın müstəsna səlahiyyətinə aid olmayan istənilən qərarların və tədbirlərin qəbul edilməsi və ya təsdiq edilməsi;
8.13.13. Digər təşkilatlarda iştirak;
8.13.14. Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Nizamnaməyə uyğun olaraq Palatanın Komitələri üçün daxili qaydaların və reqlamentin təsdiq olunması.

8.14 Hər hansı bir səbəbdən Maddə 8.13-də göstərilən məsələləri həll etmək üçün Direktorlar Şurasının çağırılması mümkün olmazsa və ya belə iclasın çağırılması məqsədəuyğun hesab edilməzsə, Prezident belə məsələlərlə bağlı birtərəfli qaydada qərar qəbul edə bilər, bir şərtlə ki, o, bu qərar barədə Şura üzvlərini xəbərdar etmiş olsun və Şura üzvlərindən heç biri xəbərdar edildiyi andan başlayaraq bir (1) iş günü ərzində qərara etiraz etməmiş olsun.

## MADDƏ 9
## İCRAÇI DİREKTOR

9.1 İcraçı Direktor Direktorlar Şurası tərəfindən təyin olunur və Şuraya münasib olan tərzdə əmək müqaviləsi əsasında işləyir.

9.2 İcraçı Direktor Palatanın gündəlik fəaliyyətini təşkil və idarə edir, Prezident və Direktorlar Şurasına hesabatlar verir. Direktorlar Şurası İcraçı Direktorun səlahiyyətlərini müəyyən edir. İcraçı Direktor Direktorlar Şurası tərəfindən ona verilən səlahiyyət dairəsinə daxil olmayan və ya Ümumi Yığıncaq və Direktorlar Şurasının müstəsna səlahiyyətinə aid olan məsələlər ilə bağlı qərar qəbul edə bilməz.

9.3 Direktorlar Şurası tərəfindən başqa cür müəyyən olunmayıbsa, İcraçı Direktor aşağıdakı məsələləri həll edir:

9.3.1. Palatanın fəaliyyəti ilə bağlı bütün məsələlər haqqında Direktorlar Şurasını məlumatlandırır;
9.3.2. Palatanın Azərbaycan Respublikasında və ya hər hansı bir başqa ölkədə olan fəaliyyəti ilə bağlı olan məsələlər barəsində üzvlər, köməkçilər, banklar, şəxsi şirkətlər və fiziki şəxslər ilə əlaqə saxlayır;
9.3.3. Etibarnamə əsasında (Direktorlar Şurası tərəfindən təsdiq edildikdən sonra) Palatanın adından müqavilələri və ya istənilən sənədləri imzalayır, Direktorlar Şurası və bu Nizamnamə ilə səlahiyyət verildikdə etibarnamə əsasında Palatanı üçüncü şəxslər qarşısında təmsil edir;
9.3.4. Palatanın iş prosesini idarə və təşkil edir;
9.3.5. Ümumi Yığıncaq və ya Direktorlar Şurası tərəfindən baxılmalı və barəsində qərar qəbul edilməli olan məsələlər haqqında məlumatlandırıcı material və ya başqa sənədləri hazırlayır;
9.3.6. Əgər bu ona həvalə olunubsa, Ümumi Yığıncaq və Direktorlar Şurasının qəbul etdiyi qərarları icra edir;
9.3.7. İşçiləri işə götürür və vəzifəyə təyin edir, onların işinə nəzarəti həyata keçirir və Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq həvəsləndirmə tədbirlərini müəyyən edir.

9.4 Öz vəzifələrini həyata keçirərkən İcraçı Direktor vəziyyətdən asılı olaraq Ümumi Yığıncaq və Direktorlar Şurasının nəzarəti altında olacaq və onların verdiyi göstərişlərə əməl edəcəkdir.

9.5 İcraçı Direktor hər hansı səbəbdən vəzifəsindən azad olunarsa, o, Palataya aidiyyatı olan və onda saxlanılan və ya nəzarəti altında olan bütün kitabları, yazıları və sənədləri Palatanın hüquqi ünvanında Direktorlar Şurasına qaytarmalıdır.

## MADDƏ 10
## KOMİTƏLƏR

10.1 Komitə üzvləri Prezident tərəfindən təyin olunan müvafiq Komitə Sədrləri tərəfindən seçilirlər. Üzvün və ya köməkçinin işçisi üzvün və ya köməkçinin razılığı ilə Komitənin Sədri və ya Komitə üzvü çalışa bilər.

10.2 Hər bir Komitə özünün münasib hesab etdiyi sayda iclaslar keçirir. Komitənin iclası İcraçı Direktorun vasitəsilə Komitə Sədri tərəfindən çağırılır. Məsələlər iclasda iştirak edən Komitə üzvlərinin səs çoxluğu ilə həll edilir.

10.3 Altı ay ərzində ardıcıl olaraq dörd iclasda iştirak etməyən Komitə üzvü bu Komitədə tutduğu vəzifədən kənarlaşdırılır. Yaranan boş vəzifələrin doldurulması Komitə Sədri tərəfindən həyata keçirilir.

10.4 Komitə ona verilən və ya özü tərəfindən hazırlanan layihələri nəzərdən keçirir və onlar barəsində hesabat hazırlayır. Belə hesabları Sədr Direktorlar Şurasına təqdim edir.

## MADDƏ 11
## HAQQ

Palatanın üzvləri və köməkçiləri Palatanın müvafiq olaraq üzvü və köməkçisi olduqlarına görə illik haqq ödəməlidirlər. Üzvlərin və köməkçilərin ödəməli olduqları haqq Direktorlar Şurası tərəfindən hər bir maliyyə ili başa çatmamış növbəti il üçün müəyyən olunur.

## MADDƏ 12
## İMZA SƏLAHİYYƏTİ OLAN ŞƏXSLƏR

Bu Nizamnamədə əks olunan hər hansı başqa müddəalara baxmayaraq yalnız Prezident etibarnamə olmadan Palata adından müqavilələr bağlaya bilər və sənədləri imza edə bilər, bir şərtlə ki, o, bu Nizamnamə ilə ona verilmiş səlahiyyət həddini aşmasın. Bütün qalan şəxslər Palata adından müqavilələri və sənədləri imzalamaq üçün onlara Prezident tərəfindən imzalanmış və üzərində Palatanın möhürü olan etibarnamə verilməlidir.

## MADDƏ 13
## FƏALİYYƏTİN DAYANDIRILMASI

Palata hüquqi şəxslərin ləğv edilməsi və (və ya) müflislik haqqında Azərbaycan Respublikasının qanunlarına əsasən ləğv edilə bilər. Ləğv edilmənin əsasları aşağıdakılardır:

- Ümumi Yığıncağın qərarı;
- Azərbaycan Respublikasının qanunlarında göstərilən əsasla Azərbaycan Respublikası məhkəməsinin çıxardığı qərar;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan hər hansı başqa əsas.

Palatanın ləğvi barədə Ümumi Yığıncağın qərarı Palatanın ləğvinə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyan ləğvetmə komissiyasını təyin edir.

Kreditorların tələbləri tamamilə təmin olunduqdan sonra yerdə qalan əmlak Palatanın hazırkı Nizamnamə ilə müəyyən olunan məqsədlər ilə mahiyyətcə oxşar olan məqsədlər üçün istifadə edilməlidir.

Palatanın adı Azərbaycan Respublikası Hüquqi Şəxslərin Dövlət Reyestrindən çıxarıldıqdan sonra, Palatanın mövcudluğu sona çatır.

**MADDƏ 14**
**MALİYYƏ İLİ**

Palatanın maliyyə ili yanvar ayının 1-də başlanır və dekabr ayının 31-də başa çatır.

**MADDƏ 15**
**YEKUN MÜDDƏALAR**

15.1 Azərbaycan Respublikasında yeni qanunun qəbul edilməsi bu Nizamnamənin bir və ya bir neçə müddəasının etibarsız, qanuna zidd və ya başqa formada icrasının mümkünsüz olmasına səbəb olarsa, bu hazırkı Nizamnamənin qalan müddəalarının etibarlığına, qanuniliyinə və icra olunmasına təsir etməyəcək. Hazırkı Nizamnamənin bir və ya bir neçə müddəası etibarsız, qanuna zidd və ya başqa formada icrası mümkünsüz olarsa, Palatanın üzvləri belə müddəaların Nizamnamədən çıxarmaq və qanunauyğun müddəalar ilə əvəz etmək üçün Nizamnaməyə dəyişiklik etməlidirlər.

15.2 Maddələrin adları yalnız asanlıq təşkil etmək məqsədi daşıyır və hazırkı Nizamnamənin müddəalarının şərhi zamanı nəzərə alınmalıdır.

15.3 Bu Nizamnamədə öz həllini tapmayan hər hansı bir məsələ Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən həll olunmalıdır.

15.4 Bu Nizamnamə Ümumi Yığıncaq tərəfindən təsdiq olunduqdan və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət qeydiyyatından keçdikdən sonra hüquqi qüvvəyə minir.